Ədəbiyyat qəzeti. 24 iyun.2023.-S.32.

# Kukla Teatrları Həftəsi




Ümumilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi çərçivəsində, Azərbaycan peşəkar milli teatrının 150 illiyi ilə əlaqədar Azərbaycan Dövlət Kukla Teatrı silsilə tədbirlər həyata keçirir.

Silsilə tədbirlər çərçivəsində iyunun 13-də Azərbaycan Dövlət Kukla Teatrında "Kukla Teatrları həftəsi"nin təntənəli açılış mərasimi baş tutdu. Mədəniyyət Nazirliyinin dəstəyi ilə keçirilən tədbirdə ölkədə fəaliyyət göstərən kukla teatrlarının yaradıcılıq prosesi ilə yaxından tanış olduq və bölgə teatrlarının yaradıcılıq imkanları paytaxt teatrsevərlərinə təqdim olundu. Tədbirdə Mədəniyyət Nazirliyi təmsilçiləri, ədəbiyyat və incəsənət, teatr xadimləri, eləcə də beynəlxalq teatr təşkilatı və festival təmsilçiləri iştirak etdilər.

"Kukla Teatrları həftəsində" nümayiş olunan tamaşalar Azərbaycan Dövlət Kukla Teatrının böyük səhnəsində "Açıq qapı" formasında baş tutdu. Tədbir teatrın kollektivinin təqdimatında "Nağılvari" adlı tamaşa-çələngi ilə başladı. Daha sonra isə teatr həftəsində təmsil olunan kukla teatrları kollektivlərinin yaradıcılıq yolunu əks etdirən video-çarx təqdim olundu. Tədbirdə Gəncə, Qax, Salyan və Naxçıvan Kukla Teatrlarının kollektivi iştirak etdilər. Teatr həftəsinin ilk qonaq kollektivi-Gəncə Dövlət Kukla Teatrının təqdimatında "Ana qaz" tamaşasının nümayişi ilə davam etdi. Xalq şairi Rəsul Rzanın "Ana qaz" şeirinin motivləri əsasında hazırlanan eyniadlı birhissəli uşaq tamaşasının quruluşçu müəllifi teatrın baş rejissoru Şamil Məmmədli, quruluşçu rəssamı Məmməd Hacıyev, xoreoqrafik həll müəllifi Fərmail Paşayev, musiqi tərtibatçısı Şamil Məmmədlidir. Rollarda Zülfiyyə Əliyeva, Naidə Namazova, Səməd Xanəhmədov, Yeganə Məmmədova, Elmar Vəliyev, Nərmin Şərifova və b. çıxış etdilər.

Tamaşada yeddi balasını hər an qorumağa çalışan amma sonda bütün balalarını itirən ana qazın faciəsinin şahidi olduq. Tamaşa zamanı balaca izləyicilərin səhnədə baş verən hadisələrə qarşı yüksək həssaslıqla göstərdikləri reaksiyaları müşahidə etdim. Bu bir daha bunu sübut edir ki, rejissorlar uşaq dünyasına, onların düşüncələrinə yaxın fərqli mövzularda əsərlərə müraciət etməklə teatr prosesində yeniliyə və inkişafa doğru irəliləyirlər.

Kukla teatrları həftəsinin növbəti günü Qax Dövlət Kukla Teatrının yaradıcı heyətinin tamaşasını izlədik. Kollektiv seyrçilərə "Xeyir və Şər" adlı pantomima kukla tamaşasını təqdim etdilər. Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin "Xeyir və Şər" əsəri əsasında hazırlanmış eyniadlı tamaşanın quruluşçu müəllifi Əməkdar artist Yusif Abdurahmanov, quruluşçu rəssamı Mayis Abdullayevdir. Rollarda Araz Mehrabov, Afət Yaqubova, İlmar Abdullayev, Məlahət Məmmədova, Elnarə Raziyeva, Aynurə Abbasova çıxış etdilər. Tamaşanın əsərdə olduğu kimi ideyası xeyirin şər üzərində qalib gəlməsidir. Növbəti günlərdə digər kukla teatrlarının tamaşalarını izlədik.

Salyan Dövlət Kukla Teatrının təqdimatında "Keçəlin sərgüzəştləri" adlı tamaşa təqdim olundu.

Uşaqlarda kitaba, elmə, təhsilə maraq oyatmaq məqsədi ilə hazırlanan nağıl-tamaşa balaca teatrsevərlər tərəfindən böyük maraqla qarşılandı.

Balaca teatrsevərlər üçün hazırlanmış tamaşanın müəllifi Ağəddin Babayev, quruluşçu müəllifi Rafiq Mirzə, quruluşçu rəssamı Ceyhun Rüstəmbəyli, musiqi tərtibatçısı Elvin İsayevdir.

Rollarda Röyal Qurbanov, Elşən İsmayıl, Nahid Rüstəmbəyli, Nərmin Hüseynli, Xuraman Qədirova, Böyükağa Mehdizadə çıxış etdilər.

Bu cür ideyanın irəli sürülməsi tamaşaçıların və uşaqların bir-birindən fərqli səhnə nümunələri ilə tanış olmağa imkan yaratdı. Tədbir çərçivəsində tamaşa nümayişləri ilə yanaşı müasir uşaq ədəbiyyatı, kukla teatrları və onun müasir inkişaf tendensiyaları, eləcə də teatr-tamaşaçı əlaqələri ilə bağlı müxtəlif formalı müzakirələr bir daha bunu göstərdi ki, kukla teatrlarının birgə fəaliyyəti, mövzu, janr, forma baxımından bir-birindən fərqlənən səhnə nümunələri təqdim etmələri teatrın inkişaf prosesi üçün böyük töhfədir.

Bağlanış mərasimində Azərbaycan Dövlət Kukla Teatrının kolletivi tərəfindən hazırlanan Hans Xristian Andersenin nağılı əsasında "Qar kraliçası" tamaşası teatrsevərlərə təqdim olundu. Tamaşanın quruluşçu rejissoru Anar Məmmədov, quruluşçu rəssamı İqbal Əliyevdir. Tədbir teatrın daxilində fəaliyyət göstərən "Oyuq" teatr-studiyasının peşəkar aktyor truppasının iştirakı ilə "Qarabağ" adlı konsertlə yekunlaşdı. Azərbaycanda bütün fəaliyyət göstərən teatrların kollektivinə yeni-yeni nailiyyətlər və uğurlar arzu edirəm!

*Səbinə ZEYNALLI*